*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 2* *ISSN 2663-4414*
*Səhifə: 142-147* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.2.142*

# Qabdulla Tukayın bədii publisistika yaradıcılığının Uralsk (Yayık) şəhəri dövrü və ya erkən mərhələsi *(1904-1907-ci illər)*

**Könül İbrahimova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: konul_ibrahimova_82@mail.ru

**Xülasə.** Qabdulla Tukay (1886-1913) iyirmi yeddi illik qısa ömrünün on iki ilini müasir Qazaxıstan Respublikasının Uralsk şəhərində yaşamış və Mutıqiyyə mədrəsəsində oxumuşdur. Tukay bədii yaradıcılığa və jurnalistliyə həmin mədrəsədə oxuduğu illərdə başlamışdır. 1904-cü ildə müəllimi Kamil Töhfətullin mədrəsə şagirdlərinin köməyi, Tukayın da yaxından iştirakı ilə tatar dilində “Əl-Məqarif” (“Maarif”) adlı ilk əlyazma (divar) qəzeti, bir ildən sonra isə “əl-Qəsr əl-Cədid” (“Yeni əsr”) adlı aylıq əlyazma (divar) jurnalı buraxmışdır. Tukay ilk yazılarını bu qəzet və jurnalda çap etdirmişdir.
Tukayın Uralskda təhsil və yaşadığı illər (1895-1907) Rusiyada 1905-1907-ci illərdə baş verən Birinci Rus inqilabı illərinə, çar mütləqiyyətinə qarşı nümayişlər və yürüşlər baş verdiyi illərə təsadüf emişdir. 17 oktyabr 1905-ci ildə çar imperiya vətəndaşlarına bəzi imtiyazlarla bərabər, söz və mətbuat azadlıqları verən “Manifest” imzalamışdır. Bu “Manifest” imzalandıqdan sonra Uralsk şəhərində bir-birinin ardınca çap üsulu ilə qəzet və jurnallar nəşr edilmişdir.
Uralskda Qabdulla Tukayın müəllimi Kamil Töhfətullinin (1883-1941) naşirliyi və redaktorluğu ilə tatar dilində “Əl-Qəsr əl-Cədid” (“Yeni əsr”, 1905-1907) və “Fiker” (“Fikir”, 1905-1907) adlı qəzetlər, “Uklar” (“Oxlar”, 1906-cı ilin iyun-noyabr ayları) satirik jurnal nəşr olunmuşdur. Tukay bu jurnal və qəzetlərdə jurnalistlik edib, şeirlərini, tərcümələrini, məqalə və bədii publisistik əsərlərini, əsasən də satirik felyetonlarını, pamfletlərini və s. onların səhifələrində çap etdirmişdir.
Bu məqalədə, Qabdulla Tukayın bədii publisistika yaradıcılığının Uralsk şəhəri dövrü və ya erkən mərhələsi (1904-1907-ci illər) kimi səciyyələndirilən dövrdə çap etdirdiyi bədii publisistika örnəkləri haqqında məlumat verilir.
**Açar sözlər:** Uralsk şəhəri, bədii publisistika, jurnal nəşri, pamflet, felyeton

**Məqalə tarixçəsi:** göndərilib – 01.03.2023; qəbul edilib – 17.03.2023

# Uralsk (Yayik) urban period or early phase of Gabdulla Tukay's artistic publicistic creativity *(1904-1907)*

**Konul Ibrahimova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: konul_ibrahimova_82@mail.ru

**Summary.** Gabdulla Tukay (1886-1913) lived twelve years of his short life of twenty-seven years in the city of Uralsk of the modern Republic of Kazakhstan and studied at the madrasa named

"Mutyqiyya". Tukay started his artistic creation and journalism during his studies at that madrasa. In 1904, with the help of his teacher Kamil Tohfatullin's madrasa students, and with the close participation of Tukay, the first handwritten (wall) newspaper in the Tatar language called "Al-Maqarif" ("Maarif"), and a year later "al-Qasr al-Jadid" ("Yeni asr") published a monthly handwritten (wall) magazine. Tukay published his first articles in this newspaper and magazine.

The years of Tukay's education and living in Uralsk (1895-1907) coincided with the years of the First Russian Revolution in Russia in 1905-1907, when demonstrations and marches against tsarist absolutism took place. On October 17, 1905, the tsar signed the Manifesto, which gave citizens of the empire equal freedom of speech and press with some privileges. After signing this Manifesto, newspapers and magazines were published one after the other in Uralsk.

In Uralsk, the newspapers "Al-Qasr al-Jadid" ("New Century", 1905-1907) and "Fiker" ("Thought", 1905-1907) were published and edited by Gabdulla Tukay's teacher Kamil Tohfatulli (1883-1941) in Tatar language satirical magazine "Uklar" ("Arrows", June-November 1906) was published. Tukay worked as a journalist in these magazines and newspapers and published his poems, translations, articles and artistic journalistic works, mainly satirical feuilletons, pamphlets, etc. on their pages.

This article provides information on the examples of literary journalism published by Gabdulla Tukay during the period characterized as the Uralsk city period or early stage (1904–1907) of artistic journalistic creativity.

**Keywords:** The city of Uralsk, art journalism, magazine publishing, pamphlets, feuilletons

**Article history:** received − 01.03.2023; accepted − 17.03.2023

## Giriş / *Introduction*

Qabdulla Tukay 27 illik qısa ömrünün 12 ilini Uralsk şəhərində yaşamışdır. Belə ki, 1895-ci ilin əvvəllərində bibisi Əzizə (Qazizə) balaca Tukayı yaşadığı Uralsk şəhərinə gətirmişdir. Əzizənin əri o zamanın tanınmış taciri Qaliəskər Usmanov idi. Kifayət qədər maddi imkanı olan ailə 1895-ci ilin fevralında Tukayı Mutıqiyyə mədrəsəsinə qoymuşdur. Burada onun dünyagörüşünün formalaşmasına ilk müəllimi Fəxrətdin xəlfənin, həmçinin mədrəsənin müəllimi, Qırmızı məscidin ikinci imamı, vaxtilə atası ilə bir mədrəsədə təhsil almış və dostluq etmiş Mutıqulla Töhfətullinin (1846-1920) böyük rolu olmuşdur. Mədrəsədə təhsil almaqla yanaşı, o, 1878-ci ildə məxsusi olaraq müsəlman uşaqları üçün açılmış üçillik rus dili sinfinə də getmiş, müəllimi – Orenburq müəllimlər məktəbinin məzunu Əhmədşah Sirazətdinovdan rus dilini mükəmməl öyrənmiş və rus ədəbiyyatı, xüsusən ona böyük təsir etmiş A.S.Puşkinin yaradıcılığı ilə yaxından tanış olmuşdur (Рәмиев, Ибрахимов, & Ханнанова, 2021, стр. 296-304)

Uralskda oxuyan zaman Tukayın dünyagörüşünün formalaşmasında, jurnalist və şair kimi yetişməsində müəllimi Mutıqulla Töhfətullinin oğlu Kamilin (1883-1941) böyük əməyi olmuşdur. O, Qahirənin "Əl-Əzhər" Universitetində təhsilini (1900-1902) başa vurduqdan sonra doğma Uralsk şəhərinə qayıdıb, atasının dərs dediyi mədrəsədə müəllimlik etmişdir. Həmin dövrdə də Tukayın Kamillə dostluğu yaranmışdır.

## Əsas hissə / *Main Part*

Kamil Töhfətullin mədrəsədə müəllim işləyərkən, 1904-cü ildə şagirdlərinin köməyi, Tukayın da bilavasitə fəal iştirakı ilə tatar dilində "Əl-Məqarif ("Maarif") adlı ilk əlyazma (divar) qəzeti, bir ildən sonra isə "Əl-Qəsr əl-Cədid" ("Yeni əsr") adlı aylıq əlyazma (divar) jurnalı buraxır (Рәмиев, Ибрахимов, & Ханнанова, 2021, стр. 304-308). Tukay bu qəzet və jurnalın əsas yazarlarından biri

olur. “Əl-Qəsr əl-Cədid” əlyazma jurnalında Tukayın iki şeiri – “Əxmətsafa əfənde – fazıyl ədibder kənde...” (“Əhmədsəfa əfəndi – yaxşı ədibdir...”, 1903, № 3) və “Tuqdı, kön tuqar kebi, ber caxibe himmət qani...” (“...Doğdu, gün doğar kimi, bir sahibə himmət qani...”, 1903, № 15) adlı şeirləri yerləşdirilmişdir.

Kamil Töhfətullin əlyazma qəzet və jurnalla kifayətlənməyib, çap üsulu ilə qəzet və jurnal nəşr etmək istəyirdi. Bu məqsədlə “Uralets” qəzetinin mətbəəsini icarəyə götürür. Mətbəənin bütün avadanlıqları ilə bərabər, “Uralets” qəzetini nəşr etdirmə səlahiyyəti də Kamil Töhfətullinə keçir (Фарит, 1992, стр. 21)

Kamil Töhfətullin Qabdulla Tukayı mətbəədə işə götürür. O, hərfdüzən şagirdi kimi mətbəədə işləməklə bərabər, jurnalda öz yazılarını da çap etdirir.

1905-ci ildən buraxılan “Əl-Qəsr əl-Cədid”in 12 may 1905-ci ildə əlyazma şəklində sonuncu nömrəsi işıq üzü görür (Рәмиев, Ибраһимов, & Ханнанова, 2021, стр. 316). Kamil Töhfətullin 9 iyun 1905-ci ildə jurnalın çap üsulu ilə nəşrinə icazə alır. Jurnal 15 yanvar 1906-cı ildən 20 may 1907-ci ilə qədər, cəmi 17 nömrə çap şəklində işıq üzü görmüşdür (Айнутдинов & Гилазев, 2017, стр. 38). Qabdulla Tukayın bu jurnalda 1905-1907-ci illərdə müxtəlif gizli imzalarla mədrəsədə tələbəlik illərinin ilk lirik və satirik şeirləri 20 iyul 1906-cı il tarixli № 7-də “Sorıkortlarqa” (“Siçovullara”) adlı pamfleti “Q.Tukaev” imzası ilə dərc olunmuşdur (Тукай., Энциклопедия. , 2016), (Тукай., 2011, стр. 103, 336-337). Jurnal Qabdulla Tukayın şair və publisist kimi yetişməsində mühüm rol oynamışdır.

7 iyun 1905-ci ildə Bakıda görkəmli mesenant Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə Azərbaycan xalqının milli məfkurəsinin inkişafında böyük rol oynamış “Həyat” qəzetinin ilk nömrəsi işıq üzü gördü. Əlimərdan bəy Topçubaşovun naşirliyi, Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun baş redaktorluğu ilə nəşr olunan qəzet nəinki Qafqazda, həmçinin İranda və Türkiyədə, eləcə də Volqaboyu tatarları arasında da yayılırdı. “Həyat” qəzetinin nəşrindən xəbərdar olan Kamil Töhfətullin çoxdankı arzusunu, tatar dilində qəzet buraxmaq işini sürətləndirmək qərarına gəlir (Фарит, 1992, стр. 21) və tezliklə tatar dilində “Fikir” (“Fiker”) adlı qəzet buraxmağa başlayır. Amma qəzetin çapına rəsmi icazə almadan buraxır. İlk nömrəsi 26 noyabr 1905-ci ildə işıq üzü görür (Айнутдинов & Гилазев, 2017, стр. 135). 4 yanvar 1906-cı ildə qəzetin nəşrinə rəsmi icazə alır (Рәмиев, Ибраһимов, & Ханнанова, 2021, стр. 325). Qəzet əvvəllər hər həftə, sonradan həftədə üç dəfə çıxır. Cəmi 73 nömrəsi çıxan qəzet 13 may 1907-ci ildə nəşrini dayandırır (Айнутдинов & Гилазев, 2017, стр. 135). Tatar ədəbiyyatının realist qələm ordusunun nümayəndələrindən olan, dövrün məşhur realist şair və ədibləri – Qabdulla Tukay, Zərif Bəşiri, Fərxanə Aluşeva, Q. Şəripova və başqaları qəzetin ən fəal yazarlarından olmuşlar. Qabdulla Tukay qəzetdə satirik şeir və bədii publisistik əsərləri, xüsusən pamfletləri, felyetonları ilə çıxış etmişdir.

Qəzetin ilk – 26 noyabr 1905-ci ildə çıxan nömrəsində Tukayın ilk tərcümə əsəri çapdan çıxmışdır. Bu, A.V.Koltsovun (1809-1842) “Nə yatırsan, kişi?” adlı şeirinin tərcüməsi idi. Tukay şeiri “Mujik yokısı” (“Kişinin yuxusu”) adı ilə “Mötərjim Qabdulla Tukayev” (“Mütərcim Qabdulla Tukayev”) imzası ilə çap etdirmişdir (Тукай., 2011, стр. 41-44, 327-329).

Qabdulla Tukay “Fikir” (“Fiker”) qəzetinin müxtəlif nömrələrində bədii publisistikanın ən geniş işlənən janrlarından olan bir neçə pamflet və felyeton çap etdirmişdir. Qəzetdə onun çəmi iki pamfleti çap olunmuşdur. Qəzetin 22 oktyabr və 5 noyabr 1905-ci il tarixli nömrəsində “Qosudarstvennaya Dumaqa” (“Dövlət Dumasına”) pamfleti “Q.Tukaev” imzası ilə (Тукай., 2016, стр. 513-514), (Тукай., 2011, стр. 125,340), 6 may 1907-ci il tarixli № 17-də “Partiyalar” məqalə-pamfleti isə imzasız çap olunmuşdur (Тукай., 2016, стр. 513-514), (Тукай, 2015, стр. 49-50, 309-311).

Bunlardan başqa, Tukayın 1907-ci ildə “Kitmibez” (“Getmiyəcəyik”) adlı pamfleti çap olunmuşdur. Əsər ilk dəfə şairin 1907-ci ildə nəşr olunmuş “4nçe dəftər” adlı əsərinə daxil edilmişdir (Тукай., 2016, стр. 366-367).

Uralsk şəhərində “Əl-Qəsr əl-Cədid” və “Fiker” (“Fikir”) adlı qəzetlərlə yanaşı, Kamil Töhfətullin “Uklar” (“Oxlar”) adlı aylıq şəkilli satirik jurnal da buraxmağa başlayır. Jurnalın ilk nömrəsi

15 iyun 1906-cı ildə çıxmışdır (Рәмиев, Ибраһимов, & Ханнанова, 2021, стр. 343). 16 səhifə həcmində olan jurnal tatar və rus dillərində nəşr olunmuşdur.

Qabdulla Tukayın Uralsk dövrü publisistikasının təhlili göstərir ki, şair, əsasən, satirik publisistikaya üz tutmuşdur. Onun adıçəkilən mətbuat orqanlarında dərc etdirdiyi satirik publisistikasında həmin dövrün ədəbi-mədəni və siyasi proseslərinin kəskin problemləri əks olunmuşdur. O dövrdə bu cür kəskin yazılarla çıxış etmək böyük cəsarət tələb edirdi. Çünki bu cür yazan jurnal müxbirləri, yazarları çox zaman satirik və tənqidi yazılarına görə qaragüruh tərəfindən təhdid edilirdilər. Ona görə də mütərəqqi ziyalılar bu cür qəzet və jurnallarda müxtəlif gizli imzalarla çıxış edirdilər. "Uklar" ("Oxlar") jurnalında Qabdulla Tukay ən çox "Şürəle" imzası ilə çıxış etmişdir. Ümumiyyətlə, Tukay "Şurale" imzası ilə 80 əsər çap etdirmişdir. Onların arasında şeirləri, satirik məqalələri, felyetonları və s. vardır (Тукай., 2016, стр. 793-794). "Uklar" ("Oxlar") jurnalında onun "Şürəle" imzası ilə 24 əsəri çap olunmuşdur. Jurnalda həmçinin "Tərtə başı" ("Dörd baş"), "Xəyləsez" ("Hiyləsiz"), "Çapansız" ("Paltosuz"), "Kırmıska" ("Qarışqa"), "Höd-höd" ("Hop-hop"), "Advokat" ("Vəkil"), "Doqaçı" ("Duaçı"), "Xəsrət" ("Həsrət"), "Jen" ("İblis"), "Mıltık" ("Tüfəng"), "Sönqe" ("Süngü") və s. gizli imzalardan istifadə etmişdir (Рәмиев, Ибраһимов, & Ханнанова, 2021, стр. 349).

O dövrdə demək olar ki, satirik mətbuat orqanlarının əksəriyyəti uzun müddət fəaliyyət göstərə bilmirdilər. Buna, ilk növbədə, onların təbiəti, yəni ittihamedici gücü səbəb olurdu. Bu orqanların əsas tənqid hədəfi olan qəhrəmanların prototipləri – xalqı istismar edən zənginlər, din pərdəsi altında müxtəlif fırıldaqlarla məşğul olan mollalar, yerli çar məmurları hər vəchlə onların fəaliyyət göstərməsinə maneçilik törədir, bağlanmasına çalışırdılar. Ona görə də, müxtəlf ünvanlara məktublar yazaraq onların bağlanmasına nail olurdular. Tatar xalqının ictimai-siyasi baxışının formalaşmasında böyük rol oynamış "Uklar" ("Oxlar") satirik jurnalı da həmin aqibəti yaşamışdır. Bu səbəblərdən jurnalın 1906-cı ilin iyunundan həmin ilin noyabr ayına qədər cəmi altı nömrəsi işıq üzü görmüş (Рәмиев, Ибраһимов, & Ханнанова, 2021, стр. 343) və sonra bağlanmışdır.

"Əl-Qəsr əl-Cədid" və "Fiker" ("Fikir") adlı qəzetlərində olduğu kimi, "Uklar"da da Tukayın bir neçə pamfleti işıq üzü görmüşdür. Jurnalın oktyabr 1906-cı il tarixli № 5-də "Timerçe" ("Dəmirçi") (Тукай., 2016, стр. 625); həmin ilin 6-cı sayında isə "Şartlar" ("Şərtlər") (Тукай., Энциклопедия. , 2016, стр. 766-767), (Тукай, 2015, стр. 241-252, 387)adlı pamfletləri "Şürəle" imzası ilə çap olunmuşdur.

Tanınmış tatar tədqiqatçı alimi U.İ.Qimadiyev tədqiqatları zamanı o dövrdə nəşr olunan bir çox tatar qəzet və jurnallarında pamfletlərə az rast gəlindiyini müşahidə etmiş və bunun səbəbini belə izah etmişdir: "Jurnallarda pamfletlərə nadir hallarda rast gəlinir. Bu, ilk növbədə, janrın çətinlikləri ilə izah olunur. Böyük ümumiləşdirmə gücü və mübariz ruhlu pamfletlər yaratmaq asan deyil. Bunun üçün dövrün mütərəqqi, inqilabi ideyaları ilə silahlanmalı, pamfletin əleyhinə yönəlmiş şəxslərin zəifliklərini, nöqsanlarını dərindən bilmək lazımdır. Pamfletin enerjisi, təsir gücü müəllifin ideoloji inamından, həm də yaradıcılıq təcrübəsindən asılıdır" (Гимадиев, 1987, стр. 149-150).

Deyilənləri Qabdulla Tukayın əməkdaşlıq etdiyi qəzet və jurnallara, həmçinin onun öz yaradıcılığına da aid etmək olar. Məlumdur ki, "pamflet – həcmcə bir o qədər də böyük olmayıb, ifşaedici xarakter daşıyan, çox vaxt xalq kütlələri üçün anlaşıqlı bir üslubda, satirik formada yazılan bədii əsərdir. Pamfletdə ictimai quruluşun mənfi cəhətləri, ayrı-ayrı adamların yaramaz rəftarı və xasiyyətləri, yaxud müəyyən bir müəssisənin cinayətkar fəaliyyəti və s. ifşa olunur" (Mirəhmədov, 1957). Uralskda yeni yaradıcılığa başlayan Qabdulla Tukay, əsasən, tərcüməçilik fəaliyyəti ilə və şeir yazmaqla daha çox məşğul olmuş, yazdıqlarını qəzet və jurnallarda çap etdirmişdir. Pamfletlərinin sayının az olması, fikrimizcə, iki səbəblə bağlıdır. Birincisi, qəzet və jurnalın sahibi və naşirinin tələbi olmuşdur. Yenicə nəşrə başlayan qəzetlərə və jurnala hücumllar başlamışdır. Kamil Töhfətullin hakimiyyət nümayəndələri, din xadimləri ilə əlavə gərginlik və problem yaranmasını istəməmişdir. Tukayın çap olunmuş pamfletlərində də qeyd edilən zümrənin nümayəndələrinin yaramaz rəftarı və xasiyyətləri deyil, o zamankı Rusiyanın monarxiya quruluşunun mənfi cəhətləri və həyata keçirdikləri siyasi xətt satiranın gücü ilə təndiq olunmuşdur. İkincisi, isə Tukayın özünün yaradıcılıq

təcrübəsi ilə əlaqəlidir. İctimai və siyasi həyatda təcrübəsi olmayan Tukayın baş verən hadisələrə özünün sərbəst fikir bildirməsində müəyyən çətinlikləri olduğundan, bu janrda yazmağa bir o qədər də meyilli olmamışdır.

Qabdulla Tukay Uralsk şəhərində yaşadığı dövrdə bədii publisistikasında felyoton yaradıcılığına daha çox üstünlük vermişdir. Bu dövrdə o, "Fiker" ("Fikir") qəzetində və "Uklar" jurnalında cəmi otuz felyeton çap etdirməyə nail olmuşdur. Onlardan on yeddisini "Fiker" qəzetində, on üçünü isə "Uklar" jurnalında çap etdirmişdir.

Qabdulla Tukay Uralskda yaşadığı dövrdə "Fiker" qəzetində və "Uklar" jurnalında çap etdirdiyi felyetonlarının çapolunma tarixi ardıcıllığına baxdıqda, onun satirik yaradıcılığının tədqiqatçılarının indiyə qədər diqqət etmədikləri maraqlı məqamı, qüdrətli qələm sahibinin felyeton yaradıcılığında özünəməxsus fərdi cəhətini ortaya çıxardı. Məlum oldu ki, Qabdulla Tukay həm "Fiker" qəzetinin, həm də "Uklar" jurnalının bəzi nömrələrində 2, 3 və hətta 4 felyetonunu çap etdirmişdir. Bu zaman o, imza yerində müxtəlif variantlardan istifadə etmişdir. Eyni nömrədə çap olunan felyetonların hər birini müxtəlif imzalarla ( "Fiker" qəzeti 21 iyul 1906-cı il № 27-də "Bez" və "Berniçe keşelərineñ ütenüe buença, vəkil – Uralsk keşese" imzaları ilə; "Uklar" jurnalının 1906-cı ilin iyul ayında çıxan № 2-də "Tərtə başı", "Kəfəştatıyüş" və "Şürəle" imzası ilə), ikisi eyni biri başqa imza ilə ("Uklar" jurnalının 1906-cı ilin sentyabr ayında çıxan № 4-də "Tərtə başı", "Tərtə başı" və "Çurt" imzası ilə), üçü eyni biri başqa imza ilə ("Uklar" jurnalının 1906-cı ilin noyabr ayında çıxan № 6-da "Şürəle", "Şürəle", "Şürəle" və "Tuklar"ın löqat möfətişe" imzası ilə), imzalı və imzasız ("Fiker" qəzeti 11 avqust 1906-cı il № 30-da "Həyəte idarə" imzası ilə və imzasız; "Fiker" qəzeti 15 oktyabr 1906-cı il № 38-də "Mösafir" imzası ilə və imzasız), hər biri imzasız ("Uklar" jurnalının 1906-cı ilin iyun ayında çıxan №1-də hər iki felyeton imzasız) çap etdirmişdir.

## Nəticə / *Conclusion*

Beləliklə, araşdırmalar göstərdi ki, Qabdulla Tukay yaradıcılığının Uralsk şəhəri dövründə lirik yaradıcılıqla yanaşı, publisistik yaradıcılıqla da məşğul olmuşdur. Bu dövrdə o, ən çox bədii publisistikanın pamflet və felyeton kimi janrlarında qələmini sınamış və bu sahədəki yaradıcılığının ən gözəl nümunələrini yaratmışdır. Bu dövrdə o, tanınmış jurnalist kimi məşhurlaşmış və satirik bədii publisistika ustası kimi məşhurlaşmışdır.

## Ədəbiyyat / *References*


Mirəhmədov, Ə. (Ред.). (1957). *Ədəbiyyatşünaslıq terminləri lüğəti.* Bakı: Azərnəşr.

Айнутдинов, Р., & Гилазев, З. (Ред.). (2017). *Татарская периодическая печать: Научно-энциклопедическое издание.* Казань: Изд-во Академии наук РТ.

Гимадиев, У. (1987). *Сила сатирического слова.* Казань: Таткнигоиздат.

Рәмиев, З., Ибраhимов, М., & Ханнанова, Г. (Ред.). (2021). *Материалы к хронике жизни и творчества Габдуллы Тукая (1886-1907).* (Т. 1). Казань.

Тукай, Г. (2015). *Әсәрләр. Академик басма. Проза, публицистика (1907-1913).* (Т. 4). Казан: Татарстан китап нәшрияты.

Тукай., Г. (2011). *Әсәрләр. Академик басма. Шигьри әсәрләр (1904-1908).* (Т. 1). Казан: Татарстан китап нәшрияты.

Тукай., Г. (2015). *Әсәрләр. Академик басма. Статьи, фельетоны, рассказы (1904-1906).* (Т. 3). Казан: Татарстан китап нәшрияты.

Тукай., Г. (2016). *Энциклопедия.* . (З. Рәмиев, & Г. Ибрагимов, Ред.) Казан.

Фарит, Я. (1992). *Татарская литература периодической печати Уральска (1905-1907 гг.).* Казань: Татарское книжное изд-во.

Həbibbəyli, İ., Osmanlı, İ. Qabdulla Tukay və Azərbaycan. Bakı: Elm və təhsil, 2021.

# Художественно-публицистское творчество Габдуллы Тукая Уральск (Яик) городской период или ранний этап *(1904-1907 гг.)*

**Конул Ибрагиова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: konul_ibrahimova_82@mail.ru

**Резюме.** Габдулла Тукай (1886-1913) двенадцать лет своей короткой двадцатисемилетней жизни прожил в городе Уральске современной Республики Казахстан и учился в медресе «Мутыкийя». Тукай начал свое художественное творчество и журналистику во время учебы в этом медресе. В 1904 году с помощью учеников медресе своего учителя Камиля Тохфатуллина и при активном участии Тукая появилась первая рукописная (стенная) газета на татарском языке под названием «Аль-Макариф» («Маариф»), а годом позже «Аль-Каср аль-Джадид» («Йени аср») издавался ежемесячный рукописный (настенный) журнал. В этой газете и журнале Тукай опубликовал свои первые статьи.

Годы образования и проживания Тукая в Уральске (1895–1907) совпали с годами Первой русской революции в России 1905-1907, когда происходили демонстрации и марши против царского абсолютизма. 17 октября 1905 года царь подписал Манифест, который давал гражданам империи равную свободу слова и печати с некоторыми привилегиями. После подписания этого Манифеста в Уральске одна за другой стали выходить газеты и журналы.

В Уральске газеты «Аль-Каср аль-Джадид» («Новый век», 1905-1907) и «Фикер» («Мысль», 1905-1907) издавались и редактировались учителем Габдуллы Тукая Камилем Тохфатуллином (1883-1941) на татарском языке, издавался сатирический журнал «Уклар» («Стрелы», июнь – ноябрь 1906 г.). Тукай работал журналистом в этих журналах и газетах, на их страницах публиковал свои стихи, переводы, статьи и художественно-публицистические произведения, преимущественно сатирические фельетоны, памфлеты и т.д.

В данной статье приводятся сведения о примерах литературной публицистики, изданной Габдуллой Тукаем в период, характеризуемый как уральский городской период или ранний этап (1904-1907) художественно-публицистического творчества.

**Ключевые слова:** город Уральск, художественная журналистика, журнальное издание, памфлеты, фельетоны